-44

DƏMIRCIZADƏ Ə.

# TYRK DILI

## QRAMMATIQA və JAZЬ QAJDALARЬ

### IBTIDAI MƏKTƏB YCYN

A Z Ə R N Ə Ş R
Tədris-Pedaqoçi şө'bəsi
B a k ь — 1 9 3 6

DƏMIRCIZADƏ Ə.

A3
7753
Ш1163.11
Б-44

# TYRK DILI

## MMATIQA və JAZЬ QAJDALARЬ

IBTIDAI MƏKTƏBIN
DƏRDYNÇY SЬNЬFЬ YCYN

*ASŞÇ XMQ*
*tərəfindən təsdiq edilmişdir*

ЮХЛАНЫЛМЫШ
ПРОВЕРЕНО
23898
Азерб. ССР Элмлер Академиясы Меркези Китабханасы
АЗЕРБ. ОТДЕЛ
Центральная Библиотека Академии Наук Азерб. ССР
2192
Азэрб. ССР ЕА И. Нэсими адына
ДИЛЧИЛИК ИНСТИТУТУ

AZƏRNƏŞR
Tədris - Pedaqoƶi Şə'bəsi
BAKЬ—1936

Азерб. ССР ... дилчилик ... насылг ... анасы

62

## § 1. Sual və nəqli çymlələr.

...Qolxoz hərəkatьnь daha iləri aparmaq, qolxoz quruluşunu tam genişləndirmək ycyn nə tələʙ olunur?

Bunun ycyn, hər şejdən əvvəl, qolxozcularьn tamamilə tə'min olunmuş, beçərmək ycyn jarajan topraƣь olmasь tələʙ olunur. Sizin elə topraƣьnьz varmь? Bəli, var. Mə'lumdur ki, ʙytyn jaqşь topraqlar qolxozlara verilmiş və mɵhkəm surətdə onlara təhkim edilmişdir...



Ikinçi, bunun ycyn tələʙ olunur ki, qolxozcular traqtor və maşьnlardan istifadə edə ʙilsinlər. Bunlar sizdə varmь? Bəli, var...

Nihajət, bunun ycyn tələʙ olunur ki, hykumət qolxozcu kəndlilərə adamla da, pulla da var qyvvəsilə jardьm gəstərsin və dyşmən sьnьflarьn tər-təkyntylərinin qolxozlarь pozmalarьna jol verməsin. Sizin ʙelə ʙir hykumətiniz var-

mь? Bəli, var. Onun adь işci kəndli şura hykumətidir.

(Stalin, 1933-çy il 19 fevralda zərвəci qolxozcularьn Birinçi Ymum Ittifaq qurultajьndakь nitqindən.)

*Tapşьrьq 1.* Joldaş Stalinin nitqindən alьnmьş parçadan janьnda çavaвь olan suallarь jazьn. Hər вir sualьn çavaвьnь jeni sətrdən jazьn. Jazdьqьnьzь uçadan oqujun. Səsin tonuna gerə вunlarь myqajəsə edin. Sualь çymlənin axьrьnda hansь işarə var? Çavaв olan çymlənin axьrьnda hansь işarə vardьr?

Sual вildirən çymləjə ***sual çymləsi*** dejilir. Sual çymləlari səsin uçalmasь ilə dejilir.
Sual çymləsinin sonunda sual işarəsi (?) qojulur.
Sual çymləsində ***kim, nə, hara, hansь, nə çyr*** kiвi sual sezləri və ja ***—mь,— mi,—mu,—my*** kiвi sual şəkilciləri işlənir; ms.:
*Kim* gəldi? *Nə* danьşьrsan?
*Gerdymy*? *Bildimi*? v.s.
Hər hansь вir mə'lumatь sadəçə вildirən çymləjə ***nəqli çymlə*** dejilir.
Nəqli çymlələrin sonunda səs alcalьr.
Nəqli çymlənin sonunda neqtə qojulur; ms.:

*Biz Leninin jolu ilə gedirik.*

*Tapşьrьq 2.* Aşaqьdakь parcanь dəftərə kecyryn və tələв olunan jerdə neqtə və ja sual işarəsi qojun.

Geçədən xejli kecmişdi ( ) Kəndin aşaqь tərəfindən həjəçanlь səs və kyj qalqdь ( ) Bu səs və kyj icində, hətta, вir-iki gyllə şaqqьltьsь eşidildi ( ) Kəndin itləri hyrməjə вaşladьlar ( ) Şirin juqudan ojadьlmьş kənd adamlarь səs gələn tərəfə jyjyryşdylər ( ) Kənd evləri вir-вirindan uzaq və вejyk вir məsafədə səpələnmiş olduqundan, haraja tələsən kəndlilər, tez jetişmək məqsədilə, cəpərdən aşьr, arxlardan tullanьr, səs gələn səmtə doqru jyryjyrdylər ( )

Bir-вirinə rast dyşən kəndlilər:
— Nə oluв ( )
— Jenə nə вədbaxtlьq yz verdi ( )
— Bu həşir kimin evindədir ( ) — dejə, soruşurdular.

(*Simyrq*)



*Tapşьrьq 3.* Aşaqьdakь parcadan sual çymlələrini tapьв dəftərə jazьn; вunlardakь sual sezləri və ja şəkilcilərinin altьndan çьzьq cəkin.

— Atandan, anandan, səjlə nəjin var?
— Coqdan gemylmyşdyr topraqa onlar,
Yzlərini вelə germəmişəm mən...
— Harada jaşajьrsan? Nə iş geryrsən?
— Bir az jaqşь dejil işimin adь,
Bir çyr kecirirəm mən də həjatь...
— Məktəвə getməjə həvəsin varmь?
— Aj əmi, hec onu soruşarlarmь?

(*M. Myşfiq*)

*Tapşьrьq 4.* Aşaqьdakь çavaвlarьn suallarьnь dyzəldiв dəftərə jazьn və işarələrini də qojun.

— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Mən tələвəjəm.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Mən 5 nymrəli məktəвdə oqujuram.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Derdynçy sьnьfdajam.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Atam ipək qomвinatьnda işləjir.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Bəli, atamьn savadь vardьr.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Savad qursunda oqumuş.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Anam qooperativdə işləjir.
— . . . . . . . . . . . . . . . . . . . . . . . .
— Bəli, mən ə'lacьjam.

*Tapşьrьq 5.* Dərsinizə aid, вilmədijinizi sual formasьnda jazьв myəlliminizə gestərin.

## § 2. Nida çymləsi.

*Tapşьrьq 1.* 9 janvar hadisəsini təsvir edən aşaqьdakь parcanь oqujun və вurada olan ***„Biz cərək istəjirik“***, ***„Biz jaşamaq istəjirik!“*** v. s. çymlələrinin səjlənişini Stalin joldaşьn nitqindən alьnmьş parcadakь çymlələrin səjlənişi ilə myqajəsə edin.
Bu çymlələrin sonunda hansь işarə var?

## Qanlь bazar

— „Şahьmьz, bizə mərhəmət et!
— Şahьmьz, aç və cьplaq coçuqlara jardьm et, əl uzat!"

Belə jalvarьşlarla nankor carьn sarajьna jaqьnlaşan kytləleri saraj, gyllələrlə qarşьladь.

Aç və cьplaq insanlarьn yzərinə jaqan qudurqan gyllə danələri onlarь bir-bir mejdanьn sovuq quçaqьna uzatdь.

Coçuqlar, qadьnlar baqrьşdьlar:
— „Biz cərək istəjirik!..
— Biz jaşamaq istəjirik!..
— Bizə mərhəmət!.." (D)

Fikirlə barabar hiss (*şadlьq*, *təəççyв*, *qorqu* v. s.) bildirən çymləjə ***nida çymləsi*** dejilir.

Belə çymlələr daha uçadan sejlənir.

Nida çymləsinin sonunda nida işarəsi (!) qojulur; ms.:

*Həjat şendir, həjat zəngindir!*
*Rədd olsun savadsьzlьq!*

*Tapşьrьq 2.* Aşaqьdakь çymləleri oqujun və lazьm olan jerdə n ө q t ə və n i d a işarəsi qojun.

Qadrolar hər şeji həll edir
(*Stalin*)

Jaşasьn Marqs, Engels, Leninin вəjyk və məqluв edilməz вajraqь.
Jaşasьn, xalqlarьn doqma, sevimli rəhвəri вəjyk Stalin.
Qommunizm — bizim qьzьl вajraqьmьz.
Mувarəzə — myqəddəs şiarьmьz.
(*D. Bedni*)

*Tapşьrьq 3.* Aşaqьdakь şe'ri əzbərdən intonasija ilə oqumaqь əjrənin.

Nə oldu o səzlərin?
Qapandь, necin, nədən,
Uzaq gerən gəzlərin?
Ojan!.. Mironic, ojan!
Ojan!.. Şanlь qəhrəman!
Ojan!.. Dur, qalq ajaqa!



Baq, ənyndə вaşьnь
Sallajan al вajraqa!
Ojan! Өmrymyzdə jaz,
Sana əlym jaraşmaz!..
(*M. Rahim*)

## § 3. Çymlə yzvləri.

### Myвtəda və xəвər.

Gynəş doqdu. Səhər acьldь. Biz ojandьq. Quşlar oqujur. Coçuqlar gylyr. Itlər ojnaşьr. Quzular mələşir. Jel əsir. Cicəklər titrəşir. Japraqlar xьşьldajьr. Hava sərinləşir. Hamь sevinir.

*Tapşьrьq 1.* Juqarьdakь çymlələrin вirinçi səzyny ***kim*** və ja ***nə*** sualь ilə əvəz edərək, oqujun, sonra suallarьn çavaвlarьnь jazьn.

Nymunə. *Nə* doqdu? *Gynəş* doqdu. ***Kim*** ojnadь? ***Biz*** ojnadьq.

*Tapşьrьq 2.* Ejni ysulla ikinçi səzyn mynasiв sualьnь tapьв sual-çavaв şəklində jazьn.

Nymunə. Səhər *nə oldu?* Səhər *acьldь*. Hamь *nə edir?* Hamь *gylyr*.

Çymlənin iki əsas yzvy olur: ***1) myвtəda, 2) xəвər***.

1) **Myвtəda.**

I. Myвtəda çymlədə ***kim***, ***nə*** suallarьndan вirinə çavaв olur; ms.:

***Jusyf oqujur.*** — ***Kim*** *oqujur?* — ***Jusyf.***
***Qələm*** *sьndь.* — ***Nə*** *sьndь?* — ***Qələm.***

II. Myвtəda çymlədə iş gərəni вildirir; ms.: *Jusyf oqujur* (oqumaq işini gərən Jusyfdyr).

III. Ja da, çymlədə sejlənilən əlamətin, kejfijjətin, həkmyn sahiвi olur; ms.:

***Qələm*** *qaradьr* (qaralьq əlamətinin sahiвi qələmdir).

Myвtəda ymumijjətlə çymlədə вir iş, hərəkət v. s. əzynə isnad olunan səzdyr; ms.:

***Qələm*** *sьndь.* ***Kaqьz*** *çьrьldь.* v. в. k.

2) **Xəвər.**

Çymlədə myвtədaja aid işi, hərəkəti, hadisəni və həkmy вildirən səzə *xəвər* dejilir; ms.:

Juqarьkь çymlələrdə ***„oqujur"***, ***„qaradьr"***, ***„sьndь"***, ***„çьrьldь"*** səzləri вirər xəвərdir.

*Tapşьrьq 3.* Aşaqьdakь parcanь dəftərinizə jazьn və **m y в t ə d a n ь n** altьndan вir, **x ə в ə r i n** altьndan iki çьzьq çəkin.

Gynəş вatьr. Hava dutulur. Quşlar oqujur. Otlar zymryd rənginə вojanьr. Meşə javaş-javaş qaranlьqlaşьr. Kəlgə hər jeri вyryjyr. Gəj qaralьr.

Quşlar javaş-javaş susur. Hamь ujujur. Meşə ujumajьr, uquldajьr.

Artьq dan jeri aqarьr. Gynəş gəzlərini açьr. Quşlar gynəşi salamlajьr. Mən sevinirəm.

*Tapşьrьq 4.* Juqarьdakь çymlələrdə mувtəda və xəвərdən вaşqa sezləri gestərin: вunlarь həm jalьnьz, həm də mувtəda və xəвərlə вirgə oqujun.

Bu sezlərin çymlədə nə kiвi vəzifə daşьdьqьna diqqət edin.

Çymlədə, mувtəda və xəвərdən вaşqa ajrь sezlər də ola вilər. Bunlar çymlədə ja mувtədanь, ja da xəвəri izah etdiklərinə gerə, ***izah ediçi*** sezlər adlanьr; ms.:

*Qara qojun aqşam kəsildi.*

*Hansь qojun?* ***Qara***. *Nə vaqt kəsildi?* ***Aqşam***. Burada (***qara***) mувtədanь, (***aqşam***) xəвəri izah edir.

Izah ediçiləri olmajan çymlə — ***myxtəsər***, izah ediçiləri olan çymlə isə, ***myfəssəl çymlə*** adlanьr.

*Tapşьrьq 5.* Izah ediçiləri **m y в t ə d a** və ja **x ə в ə r ə** aid olduqunu gestərən aşaqьdakь sxemanь dəftərə çəkin.

Zərвəci qolxozcular pamвьqь sevinə-sevinə dərirlər.






*Tapşьrьq 6.* Aşaqьdakь çymlənin sxemasьnь çəkin.

Bəjyk qardaşьm rajondan qajьtdь.

Izah ediçilər jalьnьz mувtəda, xəвərin dejil, вir-вirinin də mə'nasьnь izah edə вilir, ms.:

*Bikə qalьn kitaвь oqujur.*

Bu çymlədə (*qalьn*) sezy (*kitaвь*) sezyny izah edir ki, вunlarь hər ikisi də izah ediçidir.

*Tapşьrьq 7.* Daha ajdьn anlamaq ycyn aşaqьdakь sxemalara вaqьn və вunlarь myqajəsə edin.



*Tapşьrьq 8.* Aşaqьdakь çymlələrdən izah ediçiləri tapьn; m y в t ə d a, ja x ə в ə r ə və ja i z a h ediçijə aid olduqunu gəstərin.

1. Şen və cicəkli вahar jeniçə girir.
2. Mən uça və qarlь daqlarda sijahəti coq sevirəm.
3. Bizim qolxozumuz iki jyk avtomoвili almьş.
4. Mən joldaşьm Səjjarədən вir dəftər aldьm.
5. Məktəвimizdə ə'lacь tələвələrimiz coqdur.
6. Mən sьnьfьmьzьn qaвaqçьl tələвələrindənəm.

*Tapşьrьq 9.* Juqarьdakь (1, 2) nymrəli çymlənin sxemasьnь dyzəldin.

*Tapşьrьq 10.* Aşaqьdakь parcadan əvvəl myxtəsər, sonra myfəssəl çymləlari tapьв dəftərinizə jazьn.

Bahar jeniçə girmişdi. Qarlь, вoranlь qьşьn donduruçu pənçəsindən qurtulmuş olan hər şej dircəlməjə, çanlanmaqa вaşlamьşdь. Gəj gylyrdy. Insanlar sevinirdi. Hər şejdə вir jenilik dujulurdu. Qьşda isti jerlərə ucuв getmiş quşlar, javaş-javaş toplanьrdь. Arьlar pətəklərindən cьqьв jeni вal toplamaq ycyn, cicəklərə qonurdu. Təвiətdə olan вu dəjişmə, kəndlilərə də tə'sir etmişdi. Hamьda calьşmaq həvəsi vardь. Çytcylər hazьrlanьrdьlar. Traqtorlar dyzlərə hənirti salьrdь. Gynəş sevinirdi. Bulutlar isə, вə'zən janan dyzlərə su səpələjirdi. Hər jer şad idi. Hamь calьşьrdь.

(*A. Şaiq*)

Myxtəsər çymləni myfəssəl japmaq ycyn izah ediçi ilavə etməli; myfəssəl çymləni myxtəsər japmaq ycyn izah ediçiləri atmalьdьr.

*Tapşьrьq 10.* Aşaqьdakь myxtəsər çymləlari myfəssəl japьn.

Mən gəldim. Sərijjə oqujur.
Insán calьşmalьdьr.
Jaz gəldi. Gyllər acьldь. Əli calьşьr.
Səlim jazьr.
Sən oqudunmu?

*Tapşьrьq 11.* Aşaqьdakь myfəssəl çymlələrdə izah e d i ç i l ə r i gəstərin.

Sona вu il coq calьşdь. O dərsini vaqtlь-vaqtьnda hazьrladь. Sona məktəвdə вirinçi tələвə oldu. O, ə'lacь adьnь aldь. Sona ilin aхьrьnda вytyn dərslərdən *ə'lá* qijmətlə



вeşinçi sьnfa kecdi. Sona вir coq hekajə kitaвlarь oqumuşdu. O, oquduqlarьnь joldaşlarьna da səjləjirdi. Sona dil və ədəвijjat dərslərini hamьdan jaqşь вilirdi.

*Tapşьrьq 12.* Aşaqьdakь çymlələrdə вoş вuraqьlmьş jerləri dьrnaqlar arasьndakь sezlərlə doldurun.

Mən ....... вilirəm. Mosqva ....... mərkəzidir. Bahar .... gətirir. Savadsьzlьq .... вəladьr. Stalin .... rəhвəridir. Sən .... oqujursanmь? Qolcomaq ... dyşməndir. Işci sьnfь .... qurur. Qadьnlar .... azaddьr. M. Qorki ....... jazьcьsьdьr.

**Nymunə.** Maqsim Qorki вəjyk proletar jazьcьsьdьr. (Dərsimi, əlkəmizin, şenlik və sevinç, insana, dynja proletariatьnьn, kitaв, вizə, sьnfi, sьnьfsьz çəmijjət, Şuralar əlkəsində, вəjyk proletar.)

*Tapşьrьq 13.* Aşaqьdakь çymlələrdə izah ediçiləri tapьв m y в t ə d a və ja x ə в ə r ə aid olduqunu gəstərin.

Biz jeni həjat qururuq. Biz jeni qommunizm çəmijjəti qururuq. Şuralar Ittifaqьnьn proletariatь вu işdə sarsьlmazdьr. Dynja proletariatь вizdən ajrь dejil. Biz də, jeni çəmijjəti dynja proletariatьnьn azad olmalarь ycyn qururuq.

## § 4. Xitaв.

Əhmədəli hec вoş oturmurdu, iş gərənlər novвə ilə onu kəməjə caqьrьrdь:

— Əhmədəli, syfrə sal!

— Əhmədəli, soqan gətir, вu azdьr!

— Əhmədəli, odun gətir!

— Əhmədəli, əlim вulaşьqdьr, gəl çiвimdən вurun jajlьqьmь cьqart.

— Əhmədəli, gətyr вunu вuradan, o jana qoj!

Bu kiвi вitməz-tykənməz işləri Əhmədəli geryrdy.

(*Qantəmir*)

*Tapşьrьq 1.* Juqarьdakь parcanь, aşaqьdakь parca ilə myqajəsə edin, „Ə h m ə d ə l i" sezynyn nə ycyn işləndijini ajdьnlaşdьrьn.

„—Syfrə sal!
—Soqan gətir, вu azdьr!
— Odun gətir!
— Əlim вulaşьqdьr, gəl çiвimdən вurun jajlьqьmь сьqart!
— Gətyr вunu вuradan, o jana qoj!..“

(*Qantəmir*)

Çymlənin *kimə* və ja *nəjə* myraçəətlə səjlənildijini вildirmək ycyn işlədilən sөzlərə ***xitaв*** dejilir; ms.:

Juqarьdakь parcada „*Əhmədəli*“ sөzy ***xitaвdьr***.

Xitaв, digər çymlə yzvlərindən ***vergyl*** ilə ajrьlьr.

Çymlənin вaşьnda gələn xitaвdan sonra vergyl qojulur; ms.:

*Pioner joldaş, өlkə mydafəəsinə hazьr ol!*

Çymlənin ortasьnda olan xitaвьn hər iki tərəfinə vergyl qojulur; ms.:

*Catlajьr, Xanвaçь, qəmdən yrəjim.*

(*Saвir*)

Çymlənin sonunda olan xitaвdan əvvəl vergyl, sonra isə (mə'naja gөrə) ja sual, ja nida işarəsi qojulur; ms.:

*Məktəвə gedəçəksənmi, Rə'na?*
*Syryny dөndər, coвan!*

(*O. S.*)

Xitaв—вir və ja вir necə sөzdən iвarət ola вilər; ms.:

*Səjjarə, nə ycyn gəlmədin?*
*Pioner joldaş, Leninin vəsijjətini unutma!*
*Bytyn өlkələrin proletarlarь, вirləşiniz!*

*Tapşьrьq 2.* Aşaqьdakь parcanь dəftərinizə jazьn və xitaв sөzlərinin altьndan çьzьq cəkin.

„Sən, aj qoça вalьqcь!
Mənim halьma açь!
Məni вuraq dənizə,
Nə lazьmsa, mən sizə
Verərəm əvəzinə“.

—„Balьq, вalьq, qьzьl вalьq!
Jollarьn olsun acьq.



Bir şej lazьm dejil вizə,
Get, azadə вu dənizə!“

***

„Qoça etmə ahy-zar!
Hər dərdin carəsi var“.

***

Aj dəli, ahmaq kişi!—dejə—çoşdu, вaqьrdь.
— Istədijin hələ вir evçik oldu, a qanmaz!

„Neçəsiniz, aj xanьm? Neçəsiniz, sultanьm?
Razьsьnьzmь indi вu haldan, gөzəl xanьm!?“.

(*Puşkin*)

*Tapşьrьq 3.* Bu parcalardakь nөqtələrin jerinə lazьm olan işarələri qojun və dəftərinizə jazьn.

„Ej havada ucan durna...
Bizi qojuв, qacan durna...
Get, xoş gəldin, səfa gəldin,
Gələçəksən hacan durna...“

(*Rəşid Əfəndizadə*)

Bir zaman havada qanad saqlajьn,
Sөzym vardьr sizə... durnalar...
Qatarlaşьв, nə dijardan gəlirsiz,
Bir xəвər versəniz вizə... durnalar...

(*Vaqif*)

Zejnəв xanьm—Joldaşlar... Bu вarədə Firqə Mərkəzi Qomitəsinin ajdьn qərarьnь və artel nizamnaməsinin gөstərişlərini pozmuşsunuz.

Aвdulxalьq—Joldaş...вəs mən iki çyt kəl və yc atьmь ortalьqa qojanda, Bylвyl Çəfər вir inəjini də qojmasa, onda вu nə ortaqlьq olur...

Zejnəв—Joldaş Aвdulxalьq... gөrynyr, siz arteli janlьş вaşa dyşmyşsynyz...

(*Qantəmir*)

*Tapşьrьq 4.* Aşaqьdakь parcada çymlələrin вaşьnda olan xitaв sөzlərini ortaja, ortada və sonda olanlarьnь вaşa kecirərək, dəftərə jazьn.

— Joldaş, sakit olun, jerinizdən danьşmajьn!

— Joldaş, nə ycyn danьşmajьm, aƣzьm baƣlь dejil ki... gərmyrsən nə dejir!

— Joldaş Abdulxalьq, mə'ruzənin axьrьnda səz al, danьş! Hər şejin bir qajdasь var.

— Qajda ançaq mənim ycyn qojulubdur, joldaş?!

— Ycynçy noqsan bundan ibarətdir ki, baƣьşla Abdulxalьq joldaş, artellərin başьnda məs'ul rəhbər olmajьbdьr...

(*Qantəmir*)

*Tapşьrьq 5.* Aşaƣьda dьrnaqlar arasьndakь xitab səzlərini mynasib çymlələrdə, nəqtələrin jerində jerləşdirin və dəftərinizə jazьn.

..... əlkə mydafəəsinə hazьr ol!.. dərs vaqtь sakit otur!.. Cinin azadlьƣь uƣrunda var qyvvənlə carpьş..., birləşin!

......... mystəmləkəci aƣalara qarşь isjan jarat... faşizm ilə amansьz surətdə vuruşun! Bəsdir, bu qədər başlama fərjadə... Məni baƣьşla... bu gyn gələ bilməjəçəjəm.

(Pioner joldaş, ej cinli qardaş, dynja proletarlarь, ej məzlum Şərq. Almanja işçiləri, əkinci, əziz joldaş).

*Tapşьrьq 6.* Bytyn məktəb tələbələrinə myraçəətlə, t ə m i z l i j ə aid bir şiar jazьn. Joldaşьnьzdan istifadə ycyn bir qələm istəjin. Sьnьf joldaşlarьna, divar qəzetəsinə məqalə verməleri ycyn, myraçəətdə bulunun.

*Tapşьrьq 7.* Aşaƣьdakь parcanь dəftərə jazьb əzbərləjin.

Bəsdir, bu qədər başlama fərjadə, əkinci!
Qojma əzyny, tylkylyjə, adə, əkinci!
Cəltik də gətir, arpa da, buƣda də əkinci!
Joqsa, sojaram lap dərini, adə, əkinci!

(*Sabir*)

## § 5. Bir neçə mybtədalь çymlə.

Mən məktəbə gedirəm. Sьnьf joldaşlarьmdan Səlim, Nazlь dəxi gələçəklər. Biz orada dərs oqujaçajьq. Sonra mən, Səlim və Nazlь bərabər gəzməjə cьqaçajьq. Bizdən başqa, Naçibə ilə Səjjarə də gələçəklər. Bizim əlimizdə kitab, dəftər, qələm və kaƣьz var.

*Tapşьrьq 1.* Juqarьdakь çymlələrin m y b t ə d a l a r ь n ь tapьn. Birdən artьq mybtədasь olan çymləleri ajьrьb bir sytunda jazьn.



Bir çymlənin bir mybtədasь olduƣu kibi, bir neçə mybtədasь da ola bilər.

Bir neçə mybtədalь çymləleri səjləjəndə, mybtədalarьn arasьnda bir *balaça dajanьlьr*, jazanda isə onlarьn arasьnda *vergyl* qojulur; ms.:

*ajь, qurd, tylky və dovşan meşədə jaşajьr.*

Çymlədə iki mybtəda olarsa, aralarьnda vergyl əvəzinə (*və*), jaxud (*ilə*) baƣlajьçьsь qojulur; ms.:

*ajь və qurd meşədə jaşajьr və ja; ajь ilə qurd meşədə jaşajьr.*

Çymlədə mybtəda ikidən artьq olarsa, əvvəlkilər vergyl, axьrьnçь isə (*və*) baƣlajьçьsь ilə ajrьlьr; ms.:

*ajь, qurd, tylky və dovşan meşədə jaşajьr.*

*Tapşьrьq 2.* Aşaƣьdakь çymlələrin sxemasьna diqqət edin:

**I. Bikə ilə Dilarə oqujurlar.**




**2. Gyllər və zanbaqlar acьldь.**



### 3. Joqsullar, muzdurlar və ortaвaвlar вirləşdilər.




*Tapşьrьq 3.* Aşaqьdakь çymlələrin sxemasьnь, juqarьda gөstərdijimiz kiвi çəkin.

Bikə ilə Fatma gəzişirlər. Əli, Səjjarə və Bəsdi qolxoza getdilər.

Traqtor və qombajn kənd təsərryfat maşьnlarьdьr.

*Tapşьrьq 4.* Aşaqьdakь parcada olan çymləlri tək-tək jazьn və hər çymlənin m y в t ə d a s ь n ь tapьв altьndan çьzьq çəkin, sonra hər çymlədə olan mувtədanьn miqdarьnь çymlənin sonunda dьrnaqlar arasьnda gөstərin.

Maj вajramьdьr. Kycələr, evlər, zavodlar, məktəвlər вəzədilmiş. Işcilər, qolxozcular, tələвələr nymajişə çьqmьşlar. Qьzьl əskərlər, qьrmьzь milislər, şəfqət вaçьlarь nizamla kecirlər. Gөjdə aeroplanlar, paraşytcylər quş kiвi syzyrlər.

Balaça uşaqlar, pionerlər şen səsləri ilə şərqi oqujurlar.

*Tapşьrьq 5.* Bu parcalarь jazьn, lazьmi d u r q u işarələrini qojun.

Ajь, çanavar, tylky meşədə jaşajьr. Alma, armьd, alca və gilas вaqda olar. Palьd, qaraqaç, fьstьq meşədə olar.

Alma palьd şam aqaçь hal ilə
Ejlədilər вəhs вu minval ilə.

***

Dəçəl mejmun colaq ajь çəp keci
Bir ulaqa joldaş oldu hər ycy.

***

Atlar, өkyzlər kotana gyç verir.

Bir necə mувtədalь çymləni mувtədalarьn sajь qədər tək mувtədalь çymlə halьna salmaq olar; ms.:



*ortaвaв, joqsul calьşьr.*
*ortaвaв calьşьr, joqsul calьşьr.*

*Tapşьrьq 6.* Aşaqьdakь вir necə mувtədalь çymlələri t ə k mувtədalь çymlə halьna salьn.

Aj və ulduzlar gylyrdy. Bulud, duman və ciskin çəkilmişdi. Sevinç, nəş'ə hər tərəfi вyrymyşdy. Insanlar, hejvanlar və вitkilər sevinirdi. Jer, gөj, dəniz nəş'əli idi, çynky вahar artьq girmişdi.

N y m u n ə. Aj və ulduzlar gylyrdy.
Aj gylyrdy. Ulduzlar gylyrdy.

Bir çyr xəвərli, myxtəlif mувtədalь вir necə çymləni вir necə mувtədalь вir çymlə halьna salmaq ycyn xəвərlərdən вiri saqlanьlьr, mувtədalar janaşь jazьlaraq, aralarьna ja *vergyl*, ja *(və)* qojulur; ms.:
*Ziвa jazьr. Saвir jazьr.*
*Ziвa və Saвir jazьr.*

*Tapşьrьq 7.* Aşaqьdakь вir çyr xəвərli, tək mувtədalь çymləlri çoq mувtədalь çymlə halьna salьn.

Sara calьşьrdь. Səjjarə calьşьrdь.
Daqlar jaşьllanmьşdь. Baqlar jaşьllanmьşdь.
Aqaçlar jaşьllanmьşdь.
Jer gylyrdy. Gөj gylyrdy. Təвiət gylyrdy.
Ajь meşədə jaşajьr. Tylky meşədə jaşajьr.
Çanavar meşədə jaşajьr.

## § 6. Bir necə xəвərli çymlələr.

Rystəm dəfdərçəsinin o yz, вu yzynə вaqdь, varaqladь, вir aq səhifə açdь. Əlini qoltuq çiвinə saldь, qarandaşьnь aqtardь, tapa вilmədi. O, вir-вirindən aralь qalьn qaşlarьnь çatdь, fikrə getdi, dyşyndy, uzun myddət dyşyndy, sonra qarandaşьnь kənd qooperativində Gylzara verdijini xatьrladь...

Rystəm qolxozun irəlilməsi ycyn çoq zəhmət çəkmiş, dəfələrlə dairəjə getmiş, qolxozun tələв və ehtijaçь ycyn lazьm gələn iqdamatda вulunmuş və nətiçədə də, qolxoz ycyn kənd təsərryfat maşьnlarь almaqa myvəffəq olmuşdu.

(Simyrq)



Азерб. ССР ЕЯ И. Насими ад. ДИЛЧИЛИК ИНСТИТУТУ
Центральная Библиотека Академии Наук Азерб. ССР